**UOT 32** **(səh. 51-57)**

# NEOİMPERİALİZM TƏHLÜKƏSİNİN CƏNUBİ QAFQAZA TƏSİRİ VƏ YENİ GEOSİYASİ PROSESLƏRİN FORMALAŞMASINDA AZƏRBAYCANIN ROLU

**Məhəmməd Cəbrayılov**
AMEA-n Fəlsəfə və Sosiologiya İnstitutunun
böyük elmi işçisi, fəl.üz.fəl.d.
mehmetcoltanedu@gmail.com

**Xülasə.** Müasir dövr geosiyasi proseslərin inkişafında gözlənilməz nəticələrin siyasi-fəlsəfi analizi onu göstərir ki, bu gün qlobal güc mərkəzlərinin Cənubi Qafqaza təsiri neoimperializm kontekstindən araşdırılmalıdır. Məhz bu baxımdan mövzuda əsasən qlobal güclərin neoimperializm mahiyyətindən formalaşan geosiyasi konsepsiyalar və onun Cənubi Qafqaza təsirinin siyasi-fəlsəfi aspektləri araşdırılır.

Məqalədə geosiyasi konsepsiyalarda neoimperializm probleminin siyasi aspektləri, II Qarabağ müharibəsində Azərbaycanın qazandığı qələbənin yaratdığı yeni geosiyasi reallıqların Cənubi Qafqaza təsirləri araşdırılır.

**Açar sözlər:** neoimperializm, Cənubi Qafqaz, geosiyasi, Azərbaycan.

# THE IMPACT OF NEOIMPERIALISM ON THE SOUTH CAUCASUS AND THE ROLE OF AZERBAIJAN IN THE FORMATION OF NEW GEOPOLITICAL PROCESSES

**Mahammad Jabrayilov**
Senior Researcher at the Institute of Philosophy and Sociology
of ANAS, Doctor of Philosophy in Philosophy
mehmetcoltanedu@gmail.com

**Abstract.** A political-philosophical analysis of unexpected results in the development of geopolitical processes of the modern era shows that today the influence of global power centers on the South Caucasus should be investigated from the context of neoimperialism. It is from this point of view that geopolitical concepts formed from the neoimperialism nature of global powers and political and philosophical aspects of their influence on the South Caucasus are investigated.

The article examines the political aspects of the problem of neoimperialism in geopolitical concepts, the impact of new geopolitical realities created by the victory of Azerbaijan in the II Karabakh war on the South Caucasus.

**Keywords:** neoimperialism, South Caucasus, geopolitical, Azerbaijan

# ВЛИЯНИЕ УГРОЗЫ НЕОИМПЕРИАЛИЗМА НА ЮЖНЫЙ КАВКАЗ И РОЛЬ АЗЕРБАЙДЖАНА В ФОРМИРОВАНИИ НОВЫХ ГЕОПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ

**Магомед Джабраилов**
старший научный сотрудник
Института философии и социологии НАНА,
доктор философии по философии
mehmetcoltanedu@gmail.com

**Аннотация.** Политико-философский анализ непредвиденных последствий в развитии геополитических процессов современности показывает, что влияние глобальных держав на Южный Кавказ сегодня следует рассматривать в контексте неоимпериализма. Именно с этой

точки зрения в статье исследуются в основном геополитические концепции, сформировавшиеся в политике глобальных держав и политико-философские аспекты их влияния на Южный Кавказ.
Также рассматриваются политические аспекты проблемы неоимпериализма в геополитических концепциях, влияние на Южный Кавказ новых геополитических реалий, созданных победой Азербайджана во второй Карабахской войне.

**Ключевые слова**: неоимпериализм, Южный Кавказ, геополитика, Азербайджан.

## Giriş

Azərbaycan və Ermənistan arasında 30 ilə yaxın davam etmiş hərbi münaqişənin böyük ölçüdə həll olunmasının siyasi-fəlsəfi analizi onu göstərir ki, 44 günlük müharibə və onun indiki mövcud nəticələrinə qədər region uğrunda mübarizə, əsasən Cənubi Qafqaz ölkələrinə təsir mexanizmlərinin yaradılması və gücləndirilməsi üzərində indeksləşmişdi. İlk öncə onu qeyd edək ki, geosiyasi proseslərin mahiyyətini aydınlaşdırmadan, Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqları və qlobal güclərin bu regiondakı fəaliyyətlərinin görünməyən tərəflərini analiz etmək məsələyə birtərəfli yanaşma demək olar. Məhz bu baxımdan “geosiyasət” anlayışının təcrübədə tətbiqindən aydın olur ki, geosiyasət - siyasətin coğrafi maraqlara görə təşkili, başqa sözlə desək, “coğrafi faktlara əsaslanaraq siyasət qurmaq fəaliyyətidir”. Geostrategiya isə strateji baxımdan coğrafi elementləri incələyərək nəticələrə varmaq, siyasi maraqların strateji yöndə idarə edilməsi, başqa sözlə, strategiyanın coğrafi faktlara əsaslanan nəticə əldə etməklə bağlı fəaliyyətdir. Geosiyasətin və onun icraedici elementi olan geostrategiyanın vəzifəsi yalnız siyasət və ya strategiya elementlərini dövriyyəyə gətirmək deyil, həm də siyasətlə məşğul olan nəzəriyyəçilərə və strateqlərə məlumat verməkdir.Belə ki, baxımdan mövzuda əsasən qlobal güclərin neoimperializm mahiyyətindən formalaşan geosiyasi konsepsiyalar və onun Cənubi Qafqaza təsirinin siyasi-fəlsəfi aspektləri araşdırılır.

## Geosiyasi nəzəriyyələr və neoimperializm

Mövzu üzrə aparılan təhlillər və araşdırmalardan məlum olur ki, coğrafi bölgələrə nəzarət edən və ya ələ keçirən dünya ağalığına nail olmağı hədəfləyən bütün geosiyasi nəzəriyyəçilərin əksəriyyəti qərb dövlətlərini təmsil edir (məsələn, ABŞ, İngilis, Fransa, Almaniya və s.). Bu nəzəriyyəçilərin yaşadıqları dövrü və irəli sürdükləri fikirlər nəzərə alındıqda bütün geosiyasi nəzəriyyələrin təməlində iqtisadi ideologiyaya əsaslanan təhlükəsizlik sisteminin dayandığını açıq şəkildə görmək mümkündür. Məhz həmin dövrdə qərbdə yaranan geosiyasi nəzəriyyələri araşdırarkən aydın olur ki, sosializmin və ya kommunizmin yayılmasının qarşısının alınması, kapitalizmə əsaslanan iqtisadi sistemin mövcudluğu və iqtisadi resursların faktiki təhlükəsizliyinin təmin edilə bilməyəcəyi düşüncəsi geosiyasi nəzəriyyələrin açıq və ya qapalı çıxış ideyasını formalaşdırmışdır.

Bu baxımdan Azərbaycan həm Cumhuriyyət illərində, həm keçmiş SSR-nin tərkibində, həm də hazır ki dönəmdə geosiyasi nəzəriyyələrin tətbiq zonasından kənarda təsəvvür etmək düzgün qərarların verilməsində yalnış nəticələr çıxarmaq deməkdir. Azərbaycanın da daxil olduğu Cənubi Qafqaz regionu Amerikalı Nicholas Spaykmənin Makinder nəzəriyyəsinə qarşı irəli sürdüyü “Kənar kəmər” nəzəriyyəsinin (Rimland) birbaşa təsir zonası olmasa da, ondan uzaq da deyil. Məsələn, N.Spaykmən ABŞ-ın milli təhlükəsizlik sisteminə təqdim etdiyi geosiyasi konsepsiyasında qeyd edir ki, “kənar kəmər” mərkəzi zona ilə dəniz dövlətləri arasında aralıq zonadır. Müvafiq olaraq, kənarda (Rimland) kim üstünlük təşkil edirsə, Avrasiyaya da o hakimdir; kim Avrasiyaya hakim olarsa, dünyaya da o hakim olar” (1).

ABŞ-ın daxili qurşaqda yaratdığı ittifaqlar dairəsi bu nəzəriyyənin məhsulu və tətbiqi kimi meydana çıxır. Bu (Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO), Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatı (SEATO) və Mərkəzi Müqavilə Təşkilatı (CENTO) müharibədən sonrakı dövrdə üzv ölkələri kommunist təcavüzündən və imperiya təsirindən qorumaq üçün zəruri hesab edildi. Əvvəlki nəzəriyyələrdə olduğu kimi, bu nəzəriyyədə də Azərbaycan geostrateji əhəmiyyətinə görə dünyanın imperializm mərkəzlərinin təsir zonasındadır.

Dəniz hökmranlığı nəzəriyyəsini (Admiral Alfred T. Mahan, 1840 - 1914) irəli sürən Amerikalı admiral Mahana görə, "Dənizlərdə hökmranlıq edən dövlət dünyaya hakimdir" (2, s.37).

Mahan böyük dövlətlər arasında müharibənin nəticələrinin mütləq dənizdə alınacağına inanırdı və ABŞ-ın vətəndən uzaq bölgələrdə müharibə aparmasına imkan verən dəniz siyasəti həyata keçirməsini istəyirdi.

Alman geosiyasətçisi F.Rotselin (1844-1904) "Dövlətdaxili Məkan" nəzəriyyəsini "Dövlətdaxili Həyat Məkanı" konsepsiyasına dəyişən Karl Hauşofferin fikrincə, "dövlət canlı orqanizmdir və hər bir orqanizm kimi o da güclənib inkişaf etməlidir. Bunun üçün o, öz yaşayış sahəsini, ölkəsini inkişaf etdirməlidir" (3, s.19).

Geosiyasətə "dövlətdaxili həyat məkanı" konsepsiyasından yanaşdıqda aydın olur ki, ölkənin iqtisadi potensialı və ya onun müəyyən hissəsi cografi problemlərlə baglıdırsa, onda ölkənin inkişafı, iqtisadi gücü və onun cografi mövqeyi arasında qarsılıqlı əlaqəni tapmaq lazımdır. Fikrimizcə, bu çoxvektorlu yanasma, faktiki olaraq mikro və makro səviyyələrdə davamlı inkisafı təmin etmək üçün "həyat sahəsini" təbii və insan resursları ilə birlikdə Azərbaycanın geoiqtisadi strategiyasında tətbiqi gələcəkdə yaxşı nəticələr verə bilər. Çünki, milli maraqların yüksək səviyyədə təmin olundugu effektiv geoiqtisadi strategiya sayəsində geoiqtisadi əlaqələrin şaxələnməsi, müvafiq olaraq geoisiyasi nüfuzun artması Azərbaycanın regioda lider dövlət olmasını şərtləndirməklə yanaşı, həm də qarşıya qoyulan hədəflərə çatması üçün geniş imkanlar açır.

Region uğrunda mübarizənin məzmununu, hətta hədəflərini dəyişən Azərbaycan Vətən müharibəsindən sonra qüvvələr nisbətində məhz region dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi siyasətinə üstünlük verdi. Regionda maraqlı olan qlobal güclərin mübarizəsi artıq real nəticələr verməmədiyindən öz əhəmiyyətini itirməyə başlayıb. Azərbaycan Cənubi Qafqazda regional mübarizənin taleyinə təsir edə biləcək geopolitik önəmə malik olan dövlət kimi Vətən müharibəsində daxili separatizmin öhdəsindən gəlməklə yeni reallıq yaratdı. Azərbayacanın yaratdığı yeni reallığı nəzərə almadan qlobal və regional güclərin Cənubi Qafqazda Gürcüstan və Ermənistanla əməkdaşlığının prespektivlərindən danışmaq olmaz. Ərazi bütövlüyü və daxili seperatizm problemi ilə üzləşən Gürcüstan qərbyönümlü xarici siyasət yürütmüş olsa da ABŞ və NATO-nun regional maraqlarına tam cavab vermir. Daxili separatizm mövcud olduqca Gürcüstanın NATO-ya üzvlüyü onun nizamnaməsinə uyğun olaraq mümükünsüz görünir. Çünki, NATO Gürcüstana vəd versə belə, daxili münaqişə olan ölkələri sıralarına qəbul etməsi təşkilatın daxilində problemlərə yol aça bilər.

Ermənistanın da ABŞ və Qərbin geosiyasi maraqlarına cavab verəcəyi artıq ciddi şübhələr doğurur. Cünki, II Qarabağ müharibəsində ordusu darmadağın edilməklə məğlubiyyət bəyanatına qol çəkmiş, sosial-siyasi və maliyyə-iqtisadi böhranlarla üz-üzə qalmış Ermənistan Qərb və ABŞ-ın Cənubi Qafqazla bağlı geosiyasi hədəflərində rol ala bilməz.

Ərazisində Rusiya hərbi bazaları olan Ermənistanın iqtisadiyyatı da daxil olmaqla bütün mövcudluq faktorları məhz dövlətin milli iradəsindən kənarda formalaşan resurslarla həyata keçirilir. ABŞ və Qərbin geopolitik hədəfləri altında "əzilmə" təhlükəsi ilə üzləşən Ermənistanın siyasi, iqtisadi resursları Rusiyanın iradəsinə tabe olduğuna görə, Cənubi Qafqazda əhəmiyyətini böyük ölçüdə itirməkdədir. Digər tərəfdən Qərb dövlətləri üçün Ermənistanın Cənubi Qafqazda əhəmiyyətinin azalmasına səbəb Azərbaycan torpaqlarının işğal dövrü bitənə qədər yürütdüyü siyasətlə bağlı olub. Misal üçün Azərbaycanın Dövlət Başçısı İlham Əliyev Ermənistanı mühüm layihələrdən kənarda qoyulmasından bəhs edərək qeyd edir ki, "Ermənistanı zəiflətmək üçün müxtəlif yollardan istifadə

etdik və bütün bu yollar ictimaiyyətə təqdim edilirdi. Biz heç nəyi hansısa məxfi formatda etməmişdik. Demişdim ki, təcrid edəcəyik, etdik, neft kəmərləri, qaz kəmərləri, nəqliyyat yolları, telekommunikasiya xətləri, elektroenergetika layihələri Ermənistandan yan keçdi. Ermənistan mümkün olan gəlirlərdən məhrum edildi" (5).

Ermənistanın hazırda Cənubi Qafqazın geoiqtisadi layihələrində rol alması Azərbaycanın tətbiq etdiyi ağıllı güc və yaratdığı yeni geosiyasi reallıqla bağlıdır. Azərbaycanın yaratdığı yeni geosiyasi reallığın əsasını geoiqtisadi Cənubi Qafqazda həyata keçirdiyi geoiqtisadi layihələrlə bağlıdır. Geoiqtisadiyyatın əhəmiyyətini Azərbaycan və Cənubi Qafqaz reallığında dəyərləndirmək üçün onun tətbiq sahələrini və elmi dəyərini aydınlaşdırmaq lazımdır.

Geoiqtisadiyyat termininə metodoloji yanaşma və izahında hiss olunan qeyri-dəqiqlik, görunur bununla əlaqədardır ki, bu elm sahəsinə diqqət edən tədqiqatçılar dunyada iqtisadi və siyasi quvvələr nisbətini muəyyənləşdirərkən hazır biliklərin və metodların tətbiqinə daha çox önəm vermiş, onun xususi metodoloji əsaslarının yaradılmasına o qədər də əhəmiyyət verilməmişdir. Bir çox hallarda Qərbin iqtisadi və siyasi fikrində geoiqtisadiyyat termini bəzən özunun adekvat məzmunu baxımından duzgun araşdırılmamışdır. Məsələn, məshur ingilis cografiyasunası H.Makkinderin ideyalarında geoiqtisadiyyat termini geosiyasi diskurslarda çox zaman "iqtisadi cografiyanın, insanın və tətbiqi elmlərin kombinasiya olunmuş səkildə oyrənilməsi kimi basa duşulür". Lakin geoiqtisadiyyat haqqında fikirlərinə baxmayaraq Makkinder geniş şəkildə "klassik" geosiyasətin ən mühüm tərəfdarı kimi tanınır və onun Heartland haqqında təlimlərinə faktiki olaraq bütün geosiyasi mətnlərdə istinad edilir. Görunur, müasir dövrdə geoiqtisadiyyatla bağlı şərtlər dəyişib və bu həm də onunla bağlıdır ki, geoiqtisadiyyat tətbiqi sahə oldugundan və dövlətin geosiyasi fəaliyyəti ilə bagli butun sahələri, iqtisadiyyatı, beynəlxalq huququ, xususilə də konfliktologiya əhatə etdiyinə və göstərdiyi təsirə görə nəzərdən keçirmək lazımdır. Məhz bu baxımdan Azərbaycan geosiyasi məqsədlərinə çatmaq üçün Cənubi Qafqazda həyata keçirdiyi və təqdim etdiyi (Zəngəzur dəhlizi) geoiqtisadi layihələr həm "Qarabağ" konfliktinin sona çatmasını şərtləndirən ən vacib amillərdən biri kimi qiymətləndirmək lazımdır.

Bütün bunlar nəzərə aldıqda qeyd etməliyik ki, Azərbaycan yeni dünya nizamında rol almaqla ABŞ, Qərb, xüsusilə, NATO üçün Cənubi Qafqazın lider ölkəsi olaraq strateji cazibə mərkəzinə çevrilməyə başlayıb. Çünki, hal-hazırda Gürcüstanın, gələcəkdə isə Ermənistanın inkişafı - Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla bağlı olduğunu müəyyən etmək çətin deyil. Azərbaycan regionun böyük dövlətləri olan Rusiya və İranla qarşılıqlı maraqlar çərçivəsində strateji əməkdaşlığa üstünlük verməlklə hər hansı hərbi-siyasi bloka qoşulmadan qonşu dövlətlərlə bərabərhüquqlu münasibətlər sisteminə sahibdir. Lakin Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbədən sonra İranın Cənubi Qafqaza müdaxilə səyləri onu göstərir ki, bölgədə imperiya maraqlarını həyata keçirmək kimi absurd iddalara üstünlük verən dövlətlər var. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev 4 oktyabrda Cəbrayıl rayonunda çıxışı zamanı İranın bu əsassız ittihamı və şərləmə kompaniyası aparanlardan sübut və fakt tələb edərək qeyd edir ki: "Biz xoş niyyət göstəririk. Amma bu, o demək deyil ki, biz özümüzə qarşı əsassız ittihamları qəbul edəcəyik. Mən bunu burada – Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq. Biz bu ittihamları rədd edirik, qəbul etmirik və sübutlar tələb edirik. Bilirsiniz, bu yaxınlarda İranın hansısa əyalət mollası ağzını açıb Azərbaycana qarşı iftiralar uydurmuşdur. Mənə məlumat verildi, mən dedim ki, fikir verməyin. Hansısa əyalət mollasının sözləri ilə biz indi bu fikirlərə əhəmiyyət verəsi deyilik. O kimdir ki?! Sadəcə olaraq, əhəmiyyət verməyin. Amma sonra, əfsuslar olsun ki, rəsmi şəxslər bizə qarşı əsassız ittihamlar irəli sürməyə başlamışlar. Guya ki, Azərbaycan bu bölgələrə İsraili gətirib. Gözlərini açsınlar, görsünlər. Onlar İsraili burada harada görüblər?! Burada bir adam da yaşamır. Burada bir bina da yoxdur. Sübutlar var? Yoxdur. Sübutlar yoxdursa, hər kəs gərək dediyi sözlərə görə cavabdehlik daşısın. Biz imkan verə bilmərik ki, bizə qarşı kimsə əsassız iftira uydursun" (6).

Dövlət başçısının yuxarıda söylədiyi açıq bəyanatında üstüörtülü və ehtiyatlı eyhamların vurulduğunu da nəzərə aldıqda Cənubi Qafqazda yeni mərhələnin başlanma ehtimalını ciddiyə almağa

ehtiyac yaranır. Yeni siyasi alətlərlə imperiya maraqlarını yaxın və uzaq bölgələrdə reallaşdırmağa çalışan güc mərkəzləri ABŞ-ın həyata keçirdiyi geosiyasi modelin niyə və nə üçün iflasa uğradığını nəzərə almalıdılar. Məsələn, F.Zakaria “Vaşinqton Post” jurnalında yazdığı “Putinə nifrət etməyi dayandırın” məqaləsində qeyd edir ki, “...təsəvvür edin ki, bugünkü müdaxiləçilər öz yollarını tapıblar və prezident Obama qüvvələri artırıb və Əsəd rejimi yıxılıb.

Nəticə nə olardı? Burada bəzi ip uclar var. Vaşinqton İraqdakı Səddam Hüseyn rejimini devirdi (Suriyanın qonşusu, çoxlu eyni qəbilələrə və məzhəb ayrılıqlarına malikdir). İraqda Suriyada hər kəsin istədiyindən daha çox şey etdi, 170.000 əsgəri geri oturdu və təxminən 2 trilyon dollar xərclədi. Buna baxmayaraq humanitar fəlakət baş verdi - təxminən 4 milyon mülki köçkün və ən azı 150,000 nəfər həlak oldu. Vaşinqton Liviyadakı Müəmmər Qəddafi rejimini devirdi, lakin dövlət quruculuğunu yerli əhalinin öhdəsinə buraxdı. Nəticə, New Yorkun "döyüş zamanı köhnəlmiş çöl" adlandırdığı şey oldu. Yəməndə ABŞ rejimin dəyişməsini və yeni seçkiləri dəstəkləyib. Nəticə: ölkəni parçalayan vətəndaş müharibəsi. Bu növbəti müdaxilənin həyatını xilas edəcəyinə o qədər saleh və əmin olanlar, heç olmasa, son üçün humanitar nəticələrini dayandırmalı və düşünməlidirlər” (7).

F.Zakarianın “ABŞ-ın yaxın şərqdə həyata keçirdiyi geosiyasi layihələrin hansı humanitar nəticələrə gətirməsi” ilə bağlı qeydlərinin fakt və həqiqəti ifadə etdiyini nəzərə aldıqda və Cənubi Qafqaza oxşar geosiyasi müdaxilənin hansı sonluqla nəticələnəcəyini əvvəlcədən müəyyənləşdirmək mümkündür. Çünki, yeni dünya nizamında regional rola sahib olan Azərbaycan ərazi bütövlüyünü bərpa edərək Cənubi Qafqazın gələcək perspektivləri ilə bağlı bütün inkişaf faktorlarını öz əlində cəmləşdirib. Məhz bu baxımdan Vətən müharibəsinə qədər və postmüharibə dövründə Azərbaycanın geoiqtisadi baxımdan həyata keçirdiyi layihələr bu regionda maraqları olan bütün siyasi güclər tərəfindən qəbul edilməsi zərurəti ilə üz-üzə qalacaq.

## Yeni Avrasiyaçılıq platformasında Azərbaycanın rolu

Cənubi Qafaqzın da daxil olduğu coğrafi məkan kimi klassik geosiyasi nəzəriyyələrin içində Avarasiyaçılıq xüsusi əhəmiyyət kəsb edir. Avrasiyaçılığı Avropa və Asiya qitələrinin qovuşduğu yerdən ibarət spesifik coğrafi ərazi kimi qiymətləndirmədən öncə bu qitəni Qərblə Rusiyanın güc mübarizəsinin getdiyi geosiyasi məkan kimi nəzərdən keçirmək lazımdır. Avrasiya terminini elmi ədəbiyyata alman alimi Alexander von Humboldt gətirmişdir. Avrasiya anlayışı Avropa və bütün Asiya qitələrini (53 milyon kvadrat kilometr) əhatə edən coğrafi əraziyə verilən addır (Savitskii 1926:219). Dünya əhalisinin təxminən 60%-i bu regionda yaşayır. Azərbaycanda daxil olmaqla Qafqazın qərbindən Çinə qədər aktiv geosiyasi mübarizələrin getdiyi coğrafiya kimi dünyanın imperializm mərkəzləri tərəfindən: “Avrasiyaya hakim olan güc dünyanın ən qabaqcıl, iqtisadi cəhətdən məhsuldar olan üç regionundan ikisinə” nəzarət edə bilər yanaşması ön plana çıxarılır. Halbuki, Avrasiya məkanında mövcud dövlətlərin inteqrasiyasının inkisafı ilk növbədə özünəməxsus mədəni-coğrafi dünyaya malik xüsusi bir qitə kimi millətlər arasında sülh, təhlükəsizlik, xeyirxah qonşuluq münasibətlərinin bərqərar olmasına əsaslanmalıdır.

Sovet İttifaqının dağılmasından sonra mövcud infrastrukturdan, tranzit potensialından, regionun təbii, o cümlədən dəniz resurslarından qarsılıqlı maraq və mənafe əsasında istifadə olunması məsələsi 1992-ci ildə Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin xarici siyasət məsələləri üzrə müşaviri Sergey Borisoviç Stankeviç tərəfindən irəli sürülərək, “atlantizm-avrasiyaçılıq” anlayışından istifadə etməklə yenidən Avrasiyaçılıq Hərəkatı gündəmə gəldi. Aydındır ki, Borisoviç Stankeviç tərəfindən “iqtisadi əməkdaslıq məsələsi” Avrasiya ideyasını effektiv səkildə reallasdırmaqdan çox, Çar imperaiyası dövründə olduğu kimi Qərblə mübarizədə meydanını boş qoymamaq üçün ortaya atılmışdır.

Rusiya tərəfindən bu məqsədin geosiyasi və geoitisadi əhəmiyyəti o zaman reallaşması mükün olacaq ki, rus xalqının yalnız slavyan elementi ilə müəyyən edilə bilməyən mədəniyyətində “Turan elementi”ni nəzərə almaqla Avrasiyanın slavyan olmayan xalqlarla tarixi əlaqəsinə önəm verilsin.

Məhz bu baxımdan Avrasıyaçılığın Qərb imperializminə qarşı davamlı duruş gətirməsi üçün Rusiyanın "Türk Dövlətləri Təşkilatını" təmsil edən ölkələrlə birlikdə yeni geosiyasi şəraitdə maraqların uzlaşmasını təmin edən strategiyaya önəm verməlidir. Fikrimizcə Azərbaycanın Vətən müharibəsində qazandığı qələbədən sonra geoiqtisadi, mədəni, etnik, dini, ətraf mühitin qorunması, elmi - texniki və ümumən yuxarıda qeyd etdiyimiz Türk dünyasını təmsil edən dövlətlərlə münasibətdə Rusiya yeni geosiyasi şəraitin doğurduğu prinsipləri nəzərə almalıdır.

Avrasiyaçılıq geosiyasi nəzəriyyə olaraq XX əsrdən etibarən Rusiyanın dünya gücü olması istiqamətində hakim mövqeyə malikdir. Klassik avrasiyaçılar P.Savitski, V.Vernadski, N.Trubetskoy, R.Yakobsonun yanaşmalarında rus mədəniyyətinin Avropa mədəniyyəti ilə eyniyyət təşkil etmədiyi və Şərq-Qərb mədəniyyətinin bir sıra xüsusiyyətlərini özündə birləşdirməklə türk və slavyan xalqlarının ortaq dəyərlər üzərində inkişafı nəzərdə tutulur.

Avrasiya siyasətinin əsasları Böyük Pyotr dövründə qoyulmuş, lakin bir geosiyasi nəzəriyyə kimi 1917-ci il bolşevik inqilabına qarşı çıxmaqla Avropada sürgündə yaşayan rus ziyalıları tərəfindən meydana çıxmışdır. Yeni Osmanlılar tərəfindən türk dünyası ilə slavyan xalqlarının vahid etnomədəni orqanizm olaraq birləşməsini nəzərdə tutan bu nəzəriyyə 1920-ci illərdə sistem halına gələn bir hərəkat kimi Klassik Avrasiyaçılığın mədəni, humanitar birliyin bərqərar olmasında yeni ideoloji konsepsiya kimi inkişaf etdirildi.

Mədəni və coğrafi bütövlükdən çıxış edən yeni avrasiyaçılar, Rusiyanın xarici siyasətində geostrateji və geosiyasi element kimi bu fenomeni (avrasiyaçılığı) beynəlxalq münasibətlər sisteminə yerləşdirməyə çalışdılar. Yeni avrasiyaçılar daha çox geosiyasəti önə çəkməklə, Rusiya nə Şərqdir, nə də Qərb fəlsəfəsindən çıxış edərək avrasiyaçılığı humanitar aspektdən etno-mədəni unikal sivilizasiya kimi təqdim edirlər. Bütün "pis şeylərin" Qərbdən gəldiyi düşüncəsini önə çəkən və beynəlxalq siyasəti daimi dostluq deyil, daimi maraq fenomeni qiymətləndirən neo-avrasiyaçılar Qərbi Rusiya üçün təhlükə kimi görürdülər. Məhz bu baxımdan klassik Avrasiyaçılığın da birinci məqsədi rus kimliyini müəyyənləşdirmək və ona avropalaşma, qərbləşmə prosesinə, bir növ mədəni imperializmə alternativ yaratmaq idisə, bu günkü avrasiyaçılıq Qərbin neoimperializminə qarşı rus-türk birliyinin dayanıqlı etnomədəni model kimi qurulmasını zəruri edir. Çünki, yeni dünya nizamında klassik geosiyasi konsepsiyalar müasir şərtlərə effektiv cavab vermir.

2013-cü ildə təkrar nəşr olunan Herbert George Wellsin "Gələcəyə baxışlar" və ya (Şeylər Gələcəkdə Necə Formalaşacaq), (The Shape of Things to Come) kitabında yazırdı: "On doqquzuncu və iyirminci əsrlərdə bu planetdə bəşəriyyətin həyatı mərhələ dəyişikliyinə məruz qalır. Genişlənir. Birləşdirir. O, getdikcə daha çox bir-biri ilə əlaqəli olan tarixlərin qarmaqarışıqlığı olmaqdan çıxır və açıq və şüurlu şəkildə bir tarixə çevirilir. İrqi, sosial və siyasi talelərin tam qovuşması var. Bununla da əvvəllər gözlənilməz olan imkanlar haqqında təsəvvür insan təxəyyülünə açılır. Və bu baxış özü ilə ideyaların böyük bir şəkildə yenidən qurulmasını gətirir" (4, s.34).

H. Wellsin gəldiyi elmi baxışı klassik Avrasiyaçılıqla müqayisələndirdikdə aydın olur ki, istənilən geosiyasi konsepsiyanı yeni dövrün tələblərinə və çağırışlarına uyğunlaşdırmaq lazımıdr. Bu baxımdan Avrasiya geosiyasi məkanında mövcud olan xalqların geoiqtisadi, mədəni, siyasi uzlaşmasını təmin edən yeni platformalarda əməkdaşlığına ehtiyac yaranır.

Bu gün "kifayət qədər təbii sərvətlərə malik olan və ya onları idarə edən hər hansı qlobal güc coğrafi məkanın harasında olursa olsun dünyanı idarə edə bilər" fikri dünya nizamını və imperializmi araşdıran nəzəriyyəçilər tərəfindən elmi dövriyyəyə gətirilir. Belə ki, imperializm maraqları indi hərbi gücə əsaslanan ərazi fəthi ilə deyil, iqtisadi və mədəni mərkəzli bazarlar əldə etməyə yönəlmiş yanaşmalarla ön plana çıxır. Məhz bu baxımdan XXI əsrdə yüksək iqtisadi dəyəri olan neft, su və təbii qaza malik Orta Asiya, Yaxın Şərq və Qafqaz kimi təbii sərvətlər, ötürücü xətlər uğrunda mübarizə daha da güclənəcək. Azərbaycan geostrateji mövqeyinə görə bu mübarizənin istər-istəməz mərkəzində olacaq.

## Nəticə

Geosiyasətə "dövlətdaxili həyat məkanı" konsepsiyasından yanaşdıqda aydın olur ki, ölkənin iqtisadi potensialı və ya onun müəyyən hissəsi cografi problemlərlə baglıdırsa, onda ölkənin inkişafı, iqtisadi gücü və onun cografi mövqeyi arasında qarsılıqlı əlaqəni tapmaq lazımdır. Fikrimizcə, bu çoxvektorlu yanasma, faktiki olaraq mikro və makro səviyyələrdə davamlı inkisafı təmin etmək üçün "həyat sahəsini" təbii və insan resursları ilə birlikdə Azərbaycanın geoiqtisadi strategiyasında tətbiqi gələcəkdə yaxşı nəticələr verə bilər. Çünki, milli maraqların yüksək səviyyədə təmin olunduğu effektiv geoiqtisadi strategiya sayasində geoiqtisadi əlaqələrin şaxələnməsi, müvafiq olaraq geosiyasi nüfuzun artması Azərbaycanın regionda lider dövlət olmasını şərtləndirməklə yanaşı, həm də qarşıya qoyulan hədəflərə çatması üçün geniş imkanlar açır.

Hazırda dunyanın yeni qaydalarla tənzimlənməsi səraitində Cənubi Qafqaz regionu ilə baglı yeridilən geosiyasət diqqəti cəlb edir. Bu mənada Azərbaycan butun geosiyasi və geoiqtisadi potensialını milli və regional iqtisadi mənafelərin uyğunluğu üzərində qurulması strategiyasına önəm verməklə dunya nizamının sahəvi iştirakçısına çevrilə bilər.

Azərbaycan strateji mövqeyinə görə bir cox ölkələrin (ABS, Rusiya, İran və Turkiyə və s) geosiyasi maraqlarının toqquşduğu bir bölgənin lider dövləti olaraq geoiqtisadi siyasətini milli mənafelər baxımından aşagıdakı istiqamətlər üzərinədən qiymətləndirmək olar:

- Vətən müharibəsində qazanılan qələbənin ərazi bütövlüyündə oynadığı rolun əhəmiyyətini Cənubi Qafqaz regionunda dərk edilməsinin geoiqtisadi əsaslarını yaratmaq;
- Avrasiya məkanına daxil olan dövlətlərin boyuk əksəriyyətinin Azərbaycanla əlaqəsini gücləndirən (Zəngəzur dəhlizi, Şimal-Cənub, Şərq-Qərb, Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə) startegiyaya önəm verilməli.

## Ədəbiyyat


1. "Nicholas J. Spykman. America's Strategy in World Politics: The United States and the Balance of Power, New York, Harcourt, Brace and Company (1942). https://archive.org/details/internet. dli.2015.12310/page/n37/mode/2up
2. Alfred Thayer Mahan. Deniz Stratejisi (çevirən: Saner Sarı). Doruk yayınları. İstambul:2021 s.37 s.488.
3. Ramazan Özey. Jeopolitik Tanımlar, Teoriler ve Değişimler. Pegem akademi yayıncılık: 2017, s. 270, s.19.
4. H.G. Wellls. The Shape of Things to Come. Title: * A Project Gutenberg of Australia e Book * eBook No.: 0301391h. Language: English, Most recent update: Jun 2013 s.448, s.34.
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti. https://president.az/articles /49798. 01 yanvar 2021, 00:02.
6. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Zəngilan rayonunda çıxışı. İlhamhttps://president.az/news/speeches
7. Fareed Zakaria. Stop swooning over Putin. https://www.washingtonpost.com/opinions/vladimir-putins-interventionism-in-the-middle-east-is-not-to-be-admired/2015/10/15/7c939834-7373-11e5-8d93-0af317ed58c9_story.htm



**Rəyçi:** **fəl.e.d., prof. İ.Məmmədzadə**

**Göndərilib: 21.11.2022** **Qəbul edilib: 29.11.2022**